# Ədliyyə işçilərinin ulu öndərə ehtiramı




**Ədliyyə Nazirliyinin kollektivi dekabrın 12-də ulu öndərin vəfatının ildönümü ilə bağlı Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək məzarı önünə gül dəstələri qoyub, dahi rəhbərə sonsuz ehtiramlarını bildiriblər. Sonra nazirlikdə əbədiyaşar liderin büstü önünə gül səbəti qoyulub, Heydər Əliyev muzeyində anım mərasimi keçirilib.**

Ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ümummilli lider Heydər Əliyevin şərəfli və mənalı ömrünü doğma Vətəninə və xalqına həsr edərək müstəsna xidmətlərindən bəhs edib. O bildirib ki, ulu öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz böyük quruculuq yolu keçdi, bugünkü müstəqilliyimizin möhkəm təməli qoyuldu. Nazir daha sonra xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası, cəsarətli və sarsılmaz iradəsi ilə xalqımızı və dövlətimizi böyük təhlükələrdən qurtararaq müstəqilliyimizi dönməz və əbədi etdiyini qeyd edib.

Ulu öndərin şah əsəri olan müasir Azərbaycan dövlətinin dahi rəhbərin layiqli siyasi varisi, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli davamlı tərəqqisinin təmin olunduğu, doğma torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı ümummilli liderin ən böyük arzusunun reallığa çevrildiyi vurğulanıb.

**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 13 dekabr.- S.2.